**Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyəti**

**Məhkəmə Müsabiqə Cəmiyyəti**

# Topçubaşov Arbitraj Müsabiqəsi üzrə Memorandum Bələdçisi

---

Bu Bələdçinin əsas məqsədi Topçubaşov Arbitraj Müsabiqəsi iştirakçılarına müsabiqənin yazılı mərhələsində memorandumların yazılması ilə bağlı bəzi məqamları izah etməkdir. Bələdçiyə həm əvvəlki illərin uğurlu memorandumlarından nümunələr daxil edilmiş, həm də cari ilin Müsabiqə İşini (bundan sonra "İş") daha yaxşı anlamaq üçün bir sıra izahlar verilmişdir.

## MÜNDƏRİCAT


I. Faktlardan və hüquqdan istifadə ........ 2

II. Memorandumun hissələri ........ 3

- A. Üz səhifəsi ........ 3
- B. Mündəricat ........ 4
- C. İstifadə olunmuş mənbələr ........ 5
- D. Faktların təqdimatı ........ 6
- E. Arqumentlərin xülasəsi ........ 6
- F. Arqumentlər ........ 7
- G. Tələblər ........ 7
- H. Arbitraja müraciət ........ 8

# I. Faktlardan və hüquqdan istifadə

1. İşin faktları qətidir və komandalar bunları dəyişilməz olaraq qəbul etməlidirlər. Bu həmçinin prosessual baxımdan məsələnin yalnız hüquqi əsaslandırma ilə aparılması deməkdir. İşdəki faktlardan hüququn həmin faktlara tətbiqi ilə yararlanmağa çalışın. Faktlardan yararlanmaq heç bir halda onların təhrif olunması kimi başa düşülməməlidir.

2. İşdə əsaslandırma zamanı həm İddiaçı, həm də Cavabdeh tərəfindən istifadə edilə biləcək faktlar mövcuddur. Bu fakta qarşı istifadə ediləcək başqa bir faktı həmin faktın yanında axtarmağınız mütləq deyildir. Belə ki, həmin fakt İşin daxilində başqa bir yerdə də tapıla bilər. Bu səbəbdən komandalar hər bir cümləyə bu prizmadan baxmalıdırlar. Məsələn, aşağıdakı nümunədə bir İşdən olan iki fərqli faktın təqdimi ilə tanış ola bilərsiniz:

> 10 mart 2022-ci il tarixində Cavabdeh İddiaçıya rəsmi məktub yazaraq 6 mart 2022-ci il tarixində Rusiya Federasiyasına tətbiq edilmiş sanksiyalara görə artıq oradan taxıl ixrac edə bilmədiyini, bu səbəblə də müqavilə üzrə öhdəliklərini icra edə bilməyəcəyini və Müqaviləyə dərhal xitam verdiklərini bildirmişdir.
>
> Müqaviləyə əsasən Müqavilənin ləğv edilməsi tərəfləri ləğvetmə anınadək Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir. Buna baxmayaraq, Cavabdeh öz öhdəliklərini pozmuş və nəticədə, İddiaçı taxılı başqa ixracatçılardan almaq məcburiyyətində qalmışdır. Nəticədə, İddiaçıya 1 000 000 ABŞ dolları dəyərində zərər dəymişdir.

## II. Memorandumun hissələri

Memorandumun aşağıdakı hər bir hissəsi hər dəfə yeni səhifədən başlamalıdır.

### A. Üz səhifəsi

1. Üz səhifəsi qaydalara müvafiq olaraq memoranduma daxil edilməli olan hissələrdəndir. Komandalar bu səhifənin aşağısında komanda nömrələri ilə yanaşı, memorandumun İddiaçı, yoxsa Cavabdeh mövqeyindən yazıldığını göstərməyi unutmamalıdırlar. Məsələn, aşağıdakı nümunə üz səhifəsində bu işarə 10İ-dir:

**TOPÇUBAŞOV BEYNƏLXALQ ARBİTRAJI**

---

---

**İDDİAÇI MEMORANDUMU**

**İddiaçı tərəf "Supermarket" MMC**

**10İ**

*(komanda nömrəsi və iddiaçı və ya cavabdeh olmasını göstərən baş hərf)*

**GG.AA.iiii**

**(tarix)**

2. Komandalar arbitrajın və tərəflərin adlarını İşə nəzər salmaqla müəyyən edirlər. Tarix hissəsində isə memorandumun Müsabiqə koordinatorlarına göndərildiyi tarix qeyd edilir.

## B. Mündəricat

1. Mündəricatın memoranduma daha rahat şəkildə daxil edilməsi və lazım olduğu təqdirdə avtomatik yenilənməsi üçün Microsoft Word və ya başqa mətn proqramının üslub və başlıq (*heading)* funksiyalarından istifadə etmək məsləhət görülür:




2. Belə ki, proqram başlıq kimi işarələnmiş mətnləri mündəricat formasında indeksləyə bilir. Microsoft Word proqramında bunun üçün aşağıdakı hissədən istifadə etmək lazımdır:



3. Nümunə mündəricat bölməsi aşağıdakı kimidir:

**MÜNDƏRİCAT**

**İstifadə olunmuş mənbələr............................................................................ 5**

**Faktların təqdimatı...................................................................................... 6**

**Arqumentlərin xülasəsi................................................................................ 6**

**Arqumentlər................................................................................................. 7**

**I. Cavabdeh Müqaviləni birtərəfli qaydada ləğv etməkdə Birləşmiş Millətlər Təşkilatının "Malların beynəlxalq alğı-satqısına dair müqavilələr haqqında" Konvensiyasına (a) və AR MM-ə (b) əsasən haqlı deyildir. ........................................................................................ 7**

***1.*** **.......................................................................................................... 7**

***2.*** **.......................................................................................................... 7**

**Tələblər..........................................................................................................**

**Arbitraja müraciət.........................................................................................**

4. Mündəricatı memorandumu tamamladıqdan sonra yeniləmək lazımdır. Bunun üçün *Word*-də alətlər panelindəki *References* bölməsindən *Update table* seçimini klikləmək lazımdır. Aşağıdakı şəklə diqqət yetirin:




## C. İstifadə olunmuş mənbələr

1. Burada memorandum yazarkən istifadə etdiyiniz qanunvericilik, məhkəmə işləri, doktrinal mənbələr və istifadə etdiyiniz digər etibarlı mənbələri qeyd edirsiniz. Mənbələrin adları tam və anlaşıqlı olmalıdır. Hansı mənbələrin etibarlı olması kimi suallara cavab tapmaq üçün Bakı

Dövlət Universiteti Tələbə Hüquq Jurnalının Jurnal Siyasətindəki qaydalara baxmağınız tövsiyə olunur: http://lr.bsulawss.org/submission/policy

2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Milli qanunvericilik**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsi (21.2; 386.1; 421.1; ……….)
2. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanunu (1.0.9; 3.2)
3. ...

**Beynəlxalq mənbələr**

1. United Nations Convention on Contracts for the International Sale of Goods, 1980 (*maddələr)*
2. UNCITRAL Model Law on International Commercial Arbitration, 1985 (1)
3. ...

## D. Faktların təqdimatı

1. Bu hissədə memorandumunuzda istifadə edəcəyiniz, yəni hüququ tətbiq edəcəyiniz faktlar, yaxud sizin baxış bucağınızdan İş yazılır.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

1. İddiaçı ilə Cavabdeh arasında 10 dekabr 2021-ci il tarixində alğı-satqı müqaviləsi imzalanmışdır. Həmin Müqaviləyə əsasən Cavabdeh İddiaçını 2022-ci il ərzində 10 000 ton taxılla təmin etməli idi. Müqavilənin ümumi dəyəri 2 200 000 ABŞ dolları, taxılın 1 tonu isə 220 ABŞ dolları olaraq müəyyən edilmişdir.
2. Müqavilə üzrə ilk dəfə 2022-ci ilin fevral ayında olmaqla, rübdə bir dəfə 2 500 ton taxıl təmin edilməli idi. Buna baxmayaraq, Cavabdeh fevral ayında heç bir mal göndərməmişdir. O, 1 mart 2022-ci il tarixində İddiaçıya bildirmişdir ki, 2 500 ton həcmində taxılı gətirən nəqliyyat şirkətinin avtomobilləri 20 fevral 2022-ci il tarixində yolda qəzaya düşüb və mallar tam məhv olub, buna görə də həmin malın haqqı İddiaçı tərəfindən 5 iş günü ərzində ödənilməlidir.

## E. Arqumentlərin xülasəsi

1. Bu hissə memorandumda təqdim olunacaq arqumentlər üçün giriş xarakteri daşıyır. Xülasədə qeyd olunan arqumentlərin hər biri "Arqumentlər" hissəsində aydınlaşdırılır və əsaslandırılması aparılır. Nümunə üçün aşağıdakı mətnə diqqət yetirin:

I. Arbitraj tribunalı mübahisəyə baxmaqda tam səlahiyyətlidir.
II. Cavabdeh Müqaviləni birtərəfli qaydada ləğv etməkdə haqlı deyildir.
III. Cavabdeh Müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsinə görə məsuliyyət daşıyır.
IV. ......

## F. Arqumentlər

1. Bu hissə memorandumun ən əsas hissəsidir. Burada İşdə qoyulmuş məsələlər, yəni "Arqumentlərin xülasəsi"ndə qeyd olunan başlıqlar üzrə əsaslandırmalar aparılır.
2. Əsaslandırmalar üçün hüquqi əsaslandırma metodu kimi IRAC (*I – Issue, R – Rule, A – Application, C – Conclusion)* metodundan istifadə oluna bilər. Bu metoddan istifadə zamanı qoyulan məsələ (*issue)* başlıq kimi çıxış edir. Daha sonra mətndə tətbiq olunacaq qaydalar *(rule)* sıralanır və ehtiyac olarsa, qaydaların izah və təfsiri təqdim olunur. Təqdim olunmuş qaydanın və onun izahı faktlara tətbiq *(application)* olunur. Yekunda, adətən, bir cümlə ilə əsaslandırmanın məntiqi nəticəsi *(conclusion)* təqdim edilir.
   Hər xülasə başlığında yalnız bir qaydanın tətbiq edilməsi mütləq deyildir. Bir başlıq və ya məsələ üzrə müxtəlif hüquq qaydaları sistemli şəkildə izah, təfsir və tətbiq edilə bilər. Daha rahat başa düşülməsi üçün bir məsələnin əsaslandırılması ayrı-ayrı paraqraflara da bölünə bilər.
3. Nümunə kimi aşağıdakı sadə əsaslandırma mətninə baxa bilərsiniz:

**A. Sanksiyanın tətbiqi Cavabdehi öhdəliklərin icrasından azad etmir.**

1. Atlantida Krallığı tərəfindən Rusiya Federasiyasına qarşı tətbiq edilən sanksiyalardan sonra bütün dünyada taxılın qiyməti 200 ABŞ dollarından 300 ABŞ dollarına qalxmışdır. Cavabdeh də yaranmış situasiyanın fors-major vəziyyət olduğunu iddia etmiş və bu əsasla Müqaviləni ləğv etmişdir. Halbuki sözügedən hadisəni şəraitin əhəmiyyətli dərəcədə dəyişməsindən fərqləndirmək lazımdır. ......
2. AR Konstitusiya Məhkəməsinin 7 sentyabr 2018-ci il tarixli Plenum Qərarına əsasən qanunvericilikdə şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilənin dəyişdirilməsi və ya ləğvinin iki mərhələli qaydası nəzərdə tutulmuşdur. Tərəflərin müqavilənin həmin şəraitə uyğunlaşdırılması və ya ləğv edilməsi barədə razılığa gəlməsi məsələsi müvafiq olaraq Mülki Məcəllənin 422.2-ci maddəsində də əks olunmuşdur. ......

## G. Tələblər

1. Bu hissədə "Arqumentlər"də qeyd edilən hallarla əlaqəli ayrı-ayrılıqda arbitrajdan tələb olunan məsələlər qeyd olunur. Nümunə kimi aşağıdakı tələbə diqqət yetirin:

**III. Cavabdehin İddiaçıya cəmi 1 250 000 ABŞ dolları həcmində olan borcundan qanunvericiliyin tələblərinə uyğun olaraq, Mərkəzi Bankın təyin etdiyi uçot faiz dərəcəsi ilə 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər hesablanmış faizlər "Soba" LTD tərəfindən "Supermarket" MMC-yə ödənilməlidir.**

Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır (AR MM, mad. 439.3).

**Qeyd:** "Tələblər" və "Arqumentlər" başlıqlarında qeyd olunanlar *Styles* hissəsindəki *Heading 2* kimi işarələnməlidir ki, "Mündəricat" indekslənərkən "Tələblər" başlığının alt başlıqları kimi mündəricata çıxsın (bu o deməkdir ki, "Faktların təqdimatı", "Arqumentlərin xülaləsi" və digər əsas başlıqlar *Heading 1* kimi işarələnir):




## H. Arbitraja müraciət

1. Bu hissədə arbitraj tribunalından hansı məsələlər üzrə və hansı qaydada qərar qəbul etməsi üçün xahiş etdiyiniz göstərilir.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

# Arbitraja müraciət

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Arbitraj tribunalından

**XAHİŞ EDİRİK:**

1. 1 000 000 ABŞ dolları dəyərindəki real zərər və 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Müqaviləyə əsasən gündəlik 1 faiz həcmində cərimə Cavabdeh tərəfindən İddiaçıya ödənilsin;
2. 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Azərbaycan Respublikası qanunvericiliyinə əsasən uçot faiz dərəcəsi ilə (7.5%) faiz İddiaçıya ödənilsin;
3. .....